

Vahid MƏHƏRRƏMOV

# Cin ovu

*Esse*

Yadımdadır böyüklər həmişə bizi cin-şayətinlə qorxudub «Sözə baxmasanız cinlər sizi aparacaq» - deyərdilər. Özü də işgəncə səhnəsini təsvir edib söyləyirdilər ki, cinlər adamları tutanda içi mismarlı dəmir çəlləyə salırlar. Sonra onu üzüaşağı diyirləyirlər. Çəllək fırlandıqca mismarlar adamın bədəninə batıb qanını tökür. Öləndən sonra isə meyiti bir tərəfə atıb qanını içirlər. Guya ki, cin-şayətinlər indiyə qədər kənddə sözə baxmayan bir neçə uşağı belə öldürmüşdülər. Özləri də çox eybəcər, bədheybət və qorxunc olurlar. Ona görə də kənddə sir-sifətdən bir az kobud olanları cinə oxşadıb lağa qoyurduq.

Böyüklərə inanıb cin-şayətinlərdən qorxar, nadinclik etməz, üzüyola olardıq. Böyüdükcə, həyatı az-maz anlayıb başa düşürdük. Yavaş-yavaş dünyanı öz rəngində görür, həyatı öz ahəngində, öz ritmində hiss edirdik.

Biz tərəflərdə camaat arasında cinlər haqqında çox qarmaqarışıq söz-söhbətlər dolaşırdı. Deyirdilər ki, onlar gündüzlər yatır, gecələr ağ paltar geyinib kəndin aralığında gəzirlər. Əsasən də Söyüdlük deyilən yerdə – bağ-bağatın, qalın böyürtkən kollarının arasında yaşayırlar. Buna görə də oradan nəinki gecələr, gündüzlər də qorxa-qorxa keçir, ora-bura boylanmaqdan dördgöz olurduq.

Böyüdükcə, qollarımıza güc gəldikcə ürəkli olurduq. Daha bizi cin-şayətinlə qorxuzmaq mümkün deyildi. Hələ onu da deyim ki, hər şey əksinə olmuşdu, indi biz cinlərin arxasınca düşmüşdük. Kənddə orda-burda danışırdılar ki, cinləri tutub qul kimi işlətmək mümkün olan bir şeydir. Deyilənə görə, kəndin yuxarı məhəlləsində yaşayan Bəbir kişi nə vaxtsa, cavanlığında gecə vaxtı bağında girəvələyib bir cin tutubmuş. Buna bir az inanırdıq, çünki Bəbir kişinin özünün də bir suyu cinə oxşayırdı. Uzuntüklü çatma qaşlarının altındakı iri gözləri həmişə qıpqırmızı olurdu. Uşaq vaxtı bağ-bağatda qarşımıza çıxanda onu cinə oxşadıb qaçardıq. İllər keçdikcə Bəbir kişi də qocalırdı, yeriyəndə çox ağır-ağır addım atır, nəfəs alanda isə fıs-fıs fısıldayırdı. Bəzən ürəklənib arxasınca düşər, ayaqlarımızı aralı qoya-qoya gedər, yerişini yamsılayardıq. Bir az karlığı olduğundan ayaq səslərimizi eşitməzdi. Buna görə də ərinməz-ərinməz Bəbir kişinin dalınca xeyli gedib sonra geri qayıdırdıq. Bəzən təsadüfən dönüb geri baxanda qaçıb kola-kosa dürtülürdük. Qorxurduq ki, bizi həmişə əlində gəzdirdiyi ağacla vurar.

Camaat danışırdı ki, Bəbir kişi tutduğu cini bir neçə il qapısında qul kimi işlədib. Günlərin birində cin ona yalvar-yaxar edərək deyib: «Evdə iki körpəm qalıb, mənə yazığın gəlsin, burax çıxım gedim balalarımın yanına, neçə ildir üzlərinə həsrət qalmışam». Cinin yalvarışlarından sonra Bəbir kişinin ürəyi yumşalıb, yazığı gəldiyindən, onu buraxıb. Cin də sevinə-sevinə çıxıb gedib. Bunları eşidəndə ona qəhrəman kimi baxırdıq. Elə bilirdik ki, Bəbir kişi dünyanın ən güclü adamıdır. Zarafat deyildi ha, kişi adamları mismarlı çəlləyə salıb qanını içən cini tutub neçə il qapısında işlətmişdi.

Eşitdiklərimizdən ürəklənib biz də uşaqlarla girəvələyib cin ələ keçirmək istəyirdik. Yaşlı adamlardan onları tutmağın sirrini də öyrənmişdik. Bir az ürəkli olsaydıq, bu elə də çətin iş deyildi. Cinləri ələ keçirmək üçün gərək mütləq üstündə sancaq olaydı. Onlarla qarşılaşan kimi üç dəfə «bismillah-bismillah» - deyib sancağı bədənlərinə batırıb tez ağzını bağlayaydın ki, bir yana qaça bilməsinlər. Bundan sonra tutduğun cin olacaqdı sənin qulun. Hansı tapşırığı, hansı əmri versəydin, hara göndərsəydin sözsüz-filansız yerinə yetirəcəkdi. Deyirdilər ki, cinlər çox güclü olurlar, bütün ağır işləri bacarırlar. Kənd yerində işimiz çox olurdu. Ot biçmək, pambıq yığmaq, mal-heyvan otarmaq, arat eləmək...

Fətəli, İbadulla, Surxay, Misir və Tofiqlə birlikdə əlimizdə sancaq gecələr Söyüdlüyü, bulaq yolunu, cinlərin gizlənə biləcəyi ehtimal olunan başqa yerləri gəzib dolaşır, hər yerdə onları axtarırdıq. Deyəsən, cinlər bizdən şübhələnmiş, planlarımızdan xəbərdar olmuşdular. Çünki hər yeri ələk-vələk eləsək də, rastımıza çıxmırdılar.

Camaatın mal-qarası da gecələr bir ucdan yoxa çıxırdı. Tövlələrin qapısı sındırılır, heyvanlar aparılırdı. Oğurluqda cinləri günahlandırırdılar.

Gündüzlər cinlərdən o qədər danışıb fikirləşirdim ki, bəzən gecələr onları yuxuda görürdüm. Bir gecə yenə də cinlər yuxuma girmişdi:



Gördüm ki, kəndin yuxarısı ilə təktənha yol gedirəm. Qəflətən qarşımı bir neçə cin kəsir. Əlimi sancağa atıram ki, onu cinlərdən birinin ətinə batırıb tutum, amma görürəm ki, «silahım» üstümdə yoxdur. İrəlidə gedən cin mənə yaxınlaşanda qaçmaq istəyirəm. Nə qədər güc versəm də ayaqlarım yerindən tərpənmir. İstəyirəm ki, qışqırıb dostlarımı köməyə çağırım, səsim çıxmır. Fikirləşdim ki, yəqin cin indi məni tutub aparacaq, içi mismarlı çəlləyə salacaq, qanımı içəcək. Amma o belə eləmədi. Onlardan biri yaxınlaşıb mənimlə ədəb-ərkanla, köhnə tanışlar kimi görüşür, hələ kefimi-əhvalımı da xəbər alır. Necə olursa dilim açılır. Onunla əməlli-başlı söhbət eləyirəm. Cinin səsi də çox qəribə idi. Elə bil səs haradansa böyük diametrli borunun içindən çıxırdı. Qorxumdan dostlarımla gecələr cin ovuna çıxdığımızı ona demirəm. Amma hiss edirəm ki, o bunu bilir, məndən şübhələnir. Çünki məni üstdən aşağı süzüb gözdən qoymurdu. Necə oldusa ürəklənib ondan kəndə nə üçün getdikləri ilə maraqlanıram. Deyir ki, iki-üç nəfər var, özlərini öldürüb qapılarındakı mal-qaralarını da aparmaq istəyirik. Bu boybuxunlu cindən kimləri öldürməyə getdiyini xəbər alıram.

Eşitdiklərimdən dəhşətə gəlirəm. Cin mənim dostlarımın atalarını öldürmək istədiyini deyir. Ona yalvar-yaxar eləyirəm ki, o adamlara dəyməsin, çünki onlar mənim üçün çox əziz və doğmadırlar. Xahişimi eşidib geriyə - Söyüdlüyə qayıdır.

Səhər tezdən oyananda yuxumda cin gördüyümə, onunla danışdığıma xeyli güldüm. Bu barədə heç dostlarıma da bir söz demədim. Fikirləşdim ki, birdən qorxub ova çıxmazlar, planlarımız pozular. Axşamlar yenə də geniş tut bağlarını, qalın böyürtkən kolluqlarının arasını gəzib cin ovlamağa çalışırdıq. Dostlarım qorxmadan danışır, deyib-gülürdülər. Xəbərləri yox idi ki, axşam onların atalarını cinlərin əlindən mən xilas eləmişəm.

Xeyli müddət cin-şayətin ovuna çıxsaq da, əlimizə bir şey keçmədi. Həvəsdən düşüb bu işə bir az ara verdik. Bağ-bağatda gəzməkdən qolqılçamız qırılırdı. Cinlərə arxayın olmayıb işlərimizi özümüz gördük.

Bir dəfə dostum Fətəli ilə az qalmışdı ki, cinləri tutaq. Bu cəhdimiz boşa çıxdı. Həmin maraqlı və bir az da gülməli hadisə belə olmuşdu:

Gecə yarıdan keçmiş Fətəli ilə Söyüdlüyün yaxınlığındakı biçənəyimizə su qoymuşduq. Məndən sonra suyun növbəsi onda idi. Hava isti olduğundan ayaqlarımızı arxa sallayıb suyun içində yelləyə-yelləyə sərinləyirdik. Birdən gördük ki, ilan kimi qıvrılıb ağacların arasından keçən iki ağımtıl şey kövşən yolu ilə yavaş-yavaş bizə yaxınlaşır. Fətəli də, mən də gələnlərin cin olduğunu zənn etdik. Onlar irəlilədikcə böyüyürdülər. Addımladıqca yırğalandıqları da hiss olunurdu. Deyəsən, iki nəfər idilər. Bir-birlərindən ayrılmadan yanaşı gəlirdilər. Yüz faiz əmin olduq ki, cindirlər, kiminsə tutmaq, öldürmək, mal-qarasını aparmaq üçün yenə də kəndə gedirlər. Tez hərəmiz bir tut ağacının arxasında gizlənib sancaqlarımızı çıxardıq. Hər ehtimala qarşı bellərimizi də əlimizin altında qoyduq ki, cinləri tutanda bəlkə işimizə yaradı. Həyəcanla iri gövdəli ağacın arxasında dayanıb gözləyirdik ki, qəflətən yola çıxıb cinlərin qarşısını kəsək, sancağı onların bədəninə batırıb əsir tutaq.

Arada-sırada cinlər gələn tərəfdən səslər də eşidilirdi. Deyəsən, onlar qorxub çəkinmədən arxayınca söhbət edirdilər. Bu anlarda fikirləşirdim ki, əgər Fətəli ilə bu cinləri tuta bilsək, kəndin camaatı – uşaqdan tutmuş böyüyə kimi hamı bizim qəhrəmanlığımızdan danışacaq. Bundan sonra bizi sevən, istəyən qızların sayı çoxalacaq, üstümüzdə dava düşəcək. Cinlər yaxınlaşdıqca başımızı tez-tez ağacın arxasından çıxarırdıq ki, fürsəti əldən verməyək. Bir az da diqqətlə baxanda gördük ki, kövşəndən gələnlər cin deyil. Bunlar bacı-qardaş Səriyyə ilə Firuzdur. Qobunun yaxınlığındakı bulaqdan evlərinə su aparırlar. İşləri çox olduğundan suya gec gəlib, qaranlığa düşmüşdülər. Onlar iki iri su bidonunu eşşəyin üstünə atıb söhbət edəedə evə qayıdırdılar. Eşşək qara rəngdə olduğundan uzaqdan görsənmirdi. Yellənən ağ bidonları isə cinə bənzətmişdik. Firuzla Səriyyəyə onları cinə oxşatdığımızı deyəndə gülməkdən uğunub getdilər...

Bir axşam yenə də ova çıxmışdıq. Söyüdlüyü, qalın kolluqların arasında dolaşa-dolaşa cin axtarırdıq. Bulaq yolundan tut bağlarına keçmək istəyəndə qulağımıza səs gəldi. Tez ağacların arxasında gizlənib sancaqlarımızı əlimizdə hazır tutduq. Qabaqda iki-üç qaraltı görsənirdi. Hərdən mal-heyvan hənirtisi də gəlirdi. Aramızdakı məsafə azaldıqca qaraltılar yavaş-yavaş böyüyürdü. Yaxınlaşanda gördük ki, iki cin qabağına üç inək, dörd qoyunu qatıb aparır. Yüz faiz əmin olduq ki, bunlar cinlərdir. Əllərinə adam keçmədiyindən camaatın mal-heyvanını oğurlayıblar. Amma onlar ağ paltarda deyildilər, qara geyinmişdilər.

Bizim üçün paltarın fərqi yox idi. Əsas o idi ki, cinləri yaxşı yerdə yaxalamışdıq, onlar camaatın malqarasını oğurlayıb aparırdılar. Sözləşdik ki, yanımıza çatanda üstlərinə atılıb sancağı bədəninə batırıb tutaq. Elə də elədik. Eyni anda üstlərinə şığıyıb sancaqları bədənlərinin harasına gəldi batırdıq. Gözlənilməz bu hücumdan qorxan cinlər heç yerlərindən tərpənə bilmədilər. Sancağı batıran kimi qışqırıb bizə yalvardılar ki, onları tutmayaq. Biz də cinləri hara buraxırdıq. Ömrümüzdə ilk dəfə əlimizə düşmüş bu fürsəti qaçırmaq fikrimiz yox idi. Çoxlarının bacarmadığı bir işi görüb cin ovlamışdıq. Sabah bütün kənd, el-oba bizim igidliyimizdən danışacaqdı.

Amma cinlər ağlayaraq baş-gözlərinə döyüb deyirdilər ki, biz cin deyilik, sizin kimi insanlarıq, hərdən gəlib kəndinizdən mal-heyvan oğurlayırıq. Rəhminiz gəlsin, bizi milisə verməyin, buraxın çıxıb gedək. Bir daha siz tərəflərə gəlmərik. Onlara inanmırdıq, fikirləşirdik ki, yalan danışırlar, maskalanırlar. Bəbir kişidən sonra kənddə cinləri tutmaq ancaq bizə qismət olmuşdu. Qışqır-bağır salmaqlarına baxmayaraq, cinləri aparıb bizim tövləyə salıb dirəyə bağladıq. Sancağı da ətlərindən çıxarmadıq. Nə qədər ki, sancaq bədənindəydi, onlar heç yerə qaça bilməzdilər. Gecəni sevinc içində yatdıq.

Səhər tezdən eşitdiklərimizdən çox məyus olduq. Valideynlərimiz cinlərə baxanda onları tanımışdılar. Doğrudan da, onlar qonşu kənddə məşhur olan oğrular Maislə Hüseynqulu idi. Cin olmasa da, camaatın mal-qarasını oğrulayanları tutmuşduq. Ağsaqqalar məsləhətləşib Maislə Hüseynqulunu milisə verdilər. Ondan sonra kəndimizdə oğurluq olmadı. Biz də cin ovuna çıxmadıq ...

İndi düşünürəm ki, o zamanlar biz nə qədər qayğısız və xoşbəxt olmuşuq! Vaxt ötüb keçmiş, o illərin üstündən soyuq yellər əsmiş, yağışlar yağmışdı. Amma dəyişməyən təbiət həmişəki kimi axarlı-baxarlı günlərini insanlardan əsirgəmirdi. Dərə-təpələr, bağ-bağatlar, ağaclar, yollar, cığırlar olduğu kimi qalmış, bəlkə bir az da gözəlləşmişdi. Dünya rəngini, həyat ahəngini itirməmişdi. Dostlarımın bir neçəsi aramızdan cavan getmişdi. Fətəli, Misir, Tofiq, İbadulla dünyalarını neçə il əvvəl dəyişmişdilər. Özü də çox qəribə idi, onların ölümləri dalbadal olmuşdu. Bir neçə ayın içində uşaqlıq dostlarım sıralarımızı tərk etmişdilər. Hərəsinin qara xəbəri bir ölkədən, bir obadan gəldi. Ölüm onların hamısını kənd qəbiristanlığında bir yerə toplamışdı. Nədənsə hərdən mənə elə gəlirdi ki, bəlkə də onları cinlər oğurlayıb aparmışdı? Bəlkə cinlər bizim onları ovlayıb ağır işlər gördürəcəyimizdən duyuq düşmüşdülər? Ona görə də bizi qabaqlayıb, sıralarımızı seyrəltmək, gücümüzü zəifləmək üçün dostlarımın bəzilərini öldürmüşdülər.

Uşaqlıq dostlarımdan bir neçəsi hələ yaşayır. Bir yerə yığışanda ötənləri xatırlayıb başımıza gələn hadisələri yada salırıq. Hərdən ürəyimizdən keçir ki, kaş yenə də keçən günlər olaydı, yenə də gecələr cin ovuna çıxaydıq...